

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 108 (23.270)

13 iyun 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

* * *

Dövlətimizin başçısı həmin gün Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

* * *

Prezident İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Naxçıvan şəhərində “Gənclər Yaşayış Kompleksi”nin təməli qoyulub





Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasında gənclərə qayğı əsas məsələlər sırasındadır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada sağlam gənc nəslin yetişdirilməsi ilə yanaşı, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır.

İyunun 12-də – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində yeni “Gənclər Yaşayış Kompleksi”nin təməlatması olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir”*** fikrini xatırladaraq demişdir: Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimiz sabitlik şəraitində yaşayır, hərtərəfli təhsil alırlar. Muxtar respublikada da gənclər qayğı ilə əhatə olunub. Görülən işlərin davamı olaraq bu gün Naxçıvan şəhərində üçüncü gənclər şəhərciyi yaşayış kompleksinin təməli qoyulur. Gənclər üçün yeni yaşayış komplekslərinin tikilməsi həm onların mənzil problemlərinin həllinə, həm də ailələrin uzunömürlü olmasına xidmət edir. Çünki mənzil hər bir ailənin həyatında mühüm yer tutur. Bu gün muxtar respublikamızda 456 mindən



artıq əhali yaşayır ki, onların da 140 mini və yaxud 30 faizdən çoxu gənclərdir. Ona görə də gənclərin mənzil şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Ali Məclisin Sədri demişdir: 14-29 yaş arasındakı gənclərimizin təhsil alması və peşə öyrənməsi, mənzil şəraitlərinin yaxşılaşdırılması ölkəmizin gələcəyinə xidmət edən məsələdir. Dövlətin dəstəyi ilə Naxçıvan şəhərində yeni yaşayış kompleksinin salınmasında məqsəd də ondan ibarətdir ki, gənclərin mənzil problemi həll edilsin, onlar rahat yaşasınlar. Yaşayış kompleksinin tikilməsi həm də burada yeni iş yerlərinin açılması deməkdir. “Gənclər Yaşayış Kompleksi”nin tikilməsinə həm dövlət, həm də sahibkar tərəfindən vəsait sərf olunur. Ona görə də tikinti işləri keyfiyyətlə aparılmalı, gənclərimiz müasir mənzillərlə təmin olunmalıdırlar.

Ali Məclisin Sədri mənzillərin keyfiyyətlə tikilib başa çatdırılacağına əminliyini bildirmiş, inşaatçılara uğurlar arzulamışdır.

“Cahan Holdinq” Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov “Gənclər Yaşayış Kompleksinin” layihəsi üzrə görüləcək işlər barədə Ali Məclisin Sədrinə məlumat vermişdir. Bildirilmişdir ki, ərazidə ikisi 7, ikisi 5 mərtəbəli olmaqla, 4 yaşayış binası inşa ediləcəkdir. Yeddimərtəbəli yaşayış binalarından biri 26, digəri 28, beşmərtəbəli yaşayış binalarının isə hər biri 40 mənzillidir. Ümumilikdə, 4 yaşayış binasında 134 mənzil istifadəyə veriləcəkdir. Binaların zirzəmisində xidmət sahələri yaradılacaq, həyətdə istirahət parkı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri kompleksdə gənclərin, eləcə də ailələrin tələbatına uyğun xidmət sahələrinin yaradılması, mənzillərin ipoteka yolu ilə satışa çıxarılması və gənclərin məlumatlandırılması barədə tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri beton qarışığı bünövrəyə tökmüş, yaşayış kompleksinin təməli qoyulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Müasir Azərbaycanın şanlı tarixi” adlı tədbir keçirilib



*Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdən öncə universitetin İncəsənət fakültəsinin sərgi salonunda ümummilli liderin əziz xatirəsinə həsr edilmiş sərgiyə baxış olub. Rəngkarlıq, qrafika, dekorativ-tətbiqi sənət nümunələrinin əks olunduğu sərgidə 30-dan çox əsər nümayiş etdirilib.Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq dahi rəhbər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb. Rektor Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirərək qeyd edib ki, bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi süquta uğratmaq planlarının məhv olması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda Azərbaycanın dünya birliyinə qovuşması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ümummilli liderin siyasi xətti bu gün layiqincə davam etdirilir.

Beynəlxalq münasibətlər kafedrasının müəllimi Arzu Abdullayev “Böyük missiyanı gerçəkləşdirən siyasi dühə” adlı çıxışında bildirib ki, hər bir xalqın tarixində onun müstəqillik, milli azadlıq uğrunda apardığı mübarizənin böyük rolu vardır. Müstəqillik və azadlıq heç də asan qazanılmır, bütün xalqlara və millətlərə nəsib olmur, çünki müstəqilliyi qazanmaqla yanaşı, onu həm də qoruyub saxlamaq vacib şərtdir. Vurğulanıb ki, ölkədə sabitliyə məhz 1993-cü ildə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail olunub. Məhz ulu öndərin bu müdrik addımı nəticəsində Azərbaycan dövlətçilik əleyhinə yönəlmiş qəsdlərdən uğurla çıxıb.

Tələbələrin bədii qiraəti dinlənildikdən sonra “Milli qurtuluşdan intibaha” adlı film nümayiş olunub, konsert proqramı təqdim edilib.

**Səadət ƏLİYEVA**

# Təbrizdə rəsmi qəbul təşkil olunub





***İyunun 9-da Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 101 illik yubileyi, 28 May – Respublika Günü və Azərbaycan Respublikası Diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə rəsmi qəbul təşkil edilmişdir.***

Azərbaycan Respublikası və İran İslam Respublikasının Dövlət himnləri səsləndirildikdən sonra Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və Azərbaycan Respublikası Diplomatik xidmət orqanlarının 100 illiyi barədə ətraflı məlumat vermişdir. Baş konsul demişdir ki, cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti tarixi bir missiyanı yerinə yetirmiş, parlamentini və hökumətini, milli ordusunu, dövlət atributlarını yaratmışdır. Bildirilmişdir ki, 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi yaradılmış, xarici ölkələrdə diplomatik nümayəndəlikləri təsis edilmiş, Bakıda 16 xarici dövlətin, o cümlədən İranın diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdir.

Baş konsul ötən əsrin sonlarında xalqımızın ikinci dəfə müstəqillik qazandığını və bu zaman üzləşdiyi çətinlikləri diqqətə çatdırmış, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarının yaradıldığını qeyd etmişdir. Diqqətə çatdırılmışdır ki, dahi şəxsiyyət xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz düşdüyü bəlalardan xilas olmuş, Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanılmış və əbədi xarakter almışdır. Bu gün ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edir.

Şərqi Azərbaycan Vilayətinin ostandarı Məhəmmədrza Purməhəmmədi çıxış edərək İran İslam Respublikasının Azərbaycan Respublikasının müstəqilliyini rəsmi şəkildə tanıyan ilk ölkələrdən olduğunu bildirmişdir. Ölkələrimiz arasındakı dərin dostluq əlaqələrinə toxunan ostandar ötən 6 il ərzində iki ölkənin prezidentlərinin 12 dəfə görüşdüyünü, müxtəlif səviyyələrdə 100 görüş keçirildiyini, 30-a yaxın əməkdaşlıq sənədinin imzalandığını vurğulamışdır. Məhəmmədrza Purməhəmmədi yeni əməkdaşlıq imkanlarının yaradılması vasitəsilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli olduğunu diqqətə çatdırmışdır.

Çıxışlardan sonra "Əbədi ezamiyyət" sənədli filmindən hissələr və Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə bağlı videoçarx nümayiş olunmuşdur. Həmçinin cari ildə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd olunduğu barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmiş, ziyafət təşkil olunmuşdur. Naxçıvan Dövlət Filarmoniyasının üzvləri konsert proqramı ilə çıxış etmiş, rəmzi yubiley tortu kəsilmişdir.

Rəsmi qəbulda Təbriz şəhrdarı İrəc Şahinbaher, Şərqi Azərbaycan Vilayətinin mədəniyyət və islami irşad idarəsinin rəhbəri Məhəmməd Məhəmmədpur, Təbriz Universitetinin rektoru Mir Rza Məcidi, Təbriz Şəhər Şurasının üzvü və Vəliəsr Beynəlxalq Xəstəxanasının rəisi Şəhram Dəbiri Oskuyi, İran Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri Əkbər İsazadə və nümayəndəliyin əməkdaşları, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu, Təbrizdə yaşayan Azərbaycan Respublikası vətəndaşları və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

# Muxtar respublikaya yeni teplovoz gətirilmişdir



"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılmış, vağzal binaları, stansiyaların idarəetmə mərkəzləri, inzibati və yardımçı binalar əsaslı təmir olunmuşdur. Yeni avadanlıqların, maşın və mexanizmlərin, vaqonların alınıb gətirilməsi, yolların əsaslı təmiri və yenidən qurulması yük və sərnişindaşımalarının etibarlılığını təmin etmişdir.

Muxtar respublikada dəmiryol-nəqliyyat kompleksinin yenilənməsi, bu sahənin texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər 2019-cu ildə də davam etdirilir. Naxçıvan dəmir yolunda lokomotivlərə olan tələbat nəzərə alınaraq "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovun tapşırığına əsasən "ÇME 3" seriyalı 6069 saylı yeni manevr teplovozu "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası işğalçı ölkə tərəfindən blokadaya salındığı üçün ölkəmizlə birbaşa dəmir yolu əlaqəsi kəsilmişdir. Daşımalar, əsasən, avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Yüklərin muxtar respublikaya çatdırılmasında Gürcüstan və Türkiyə üzərindən keçən avtomobil yolundan da geniş istifadə olunur. Yeni teplovoz da xüsusi avtoqoşqular vasitəsilə Gürcüstan və Türkiyə üzərindən keçməklə iyunun 12-də muxtar respublikaya gətirilmişdir.

Teplovozdan dəmir yolunda manevr işlərinin aparılmasında, qatarların təhlükəsiz və maneəsiz hərəkətinin təmin olunmasında, sərnişinlərin vaxtında mənzil başına çatdırılmasında, həmçinin Ordubad-Culfa istiqamətində hərəkət edən yük-sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə olunacaqdır.

***"Naxçıvan Dəmir Yolları"***
***Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

# *"Gələcəyin alimləri"* layihəsinin təqdimat mərasimi keçirilib

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən "Gələcəyin alimləri" layihəsinin təqdimat mərasimini giriş sözü ilə institutun rektoru, professor Elbrus İsayev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına göstərilən dövlət qayğısı elmi potensialı gücləndirib, elm, ali və orta ixtisas təhsili müəssisələrində yüksəkixtisaslı professor-müəllim heyəti formalaşdırılıb.

Rektor qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, AMEA Naxçıvan Bölməsi və muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri qarşısında müvafiq vəzifələr qoyulub. Bu vəzifələrin icrası məqsədilə Naxçıvan Müəllimlər İnstitutunun elmi dərəcəsi olan əməkdaşlarının muxtar respublikanın ümumtəhsil məktəblərindəki nümunəvi dərslərdə iştirakı təmin edilib.

Elbrus İsayev bildirib ki, ötən müddət ərzində ümumtəhsil məktəbləri ilə əlaqələrin gücləndirilməsi məqsədilə institutun nəzdində "Gələcəyin alimləri" layihəsinin əsasnaməsi hazırlanıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, bu gün muxtar respublika təhsili özünün uğurlu inkişaf dövrünü yaşayır, burada müasir təhsil şəraiti yaradılıb. Bu isə muxtar respublikada innovativ təhsil üsullarının tətbiqinə geniş imkanlar açıb.



Təhsil naziri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən 2015-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərslər təşkil edilir.

Cari tədris ilində muxtar respublikanın ümumtəhsil müəssisələrində elm və ali təhsil müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən, ümumilikdə, 1358 saat nümunəvi dərs tədris olunub. Bu, elmi dərəcəsi olan müəllimlərlə orta təhsil müəssisələri arasındakı əlaqələri gücləndirir, eyni zamanda şagirdlərin biliklərinin artırılmasına, onların gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir.

Nazir bildirib ki, nümunəvi dərslərlə yanaşı, təhsil müəssisələrində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı mövzuların tədrisi prosesində muzeylərlə, AMEA Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslər keçilir. Başa vurduğumuz tədris ilində, ümumilikdə, 44 interaktiv dərs tədris olunub.

Təhsil naziri təhsildə həyata keçirilən "İnteraktiv dərs", "Nümunəvi dərs", eyni zamanda "Elektron universitet", "Sabahın müəllimi", "Distant təhsil" və "Dərsdən sonra" layihələrinin təhsilin inkişafına mühüm təsir göstərən layihələr olduğunu qeyd edib. "Gələcəyin alimləri" layihəsi də istedadlı şagirdlərin üzə çıxarılmasında, onların tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

Nazir təhsilə göstərdiyi dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Naxçıvan Müəllimlər İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazovun və Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin direktoru Elmira Həsənovanın çıxışları dinlənilib.

Sonda nümunəvi dərslərə aid filmə baxış olub.

**✍ Pərviz HACILI**

# "Qurtuluşdan başlanan yol" mövzusunda interaktiv dərs





*İyunun 12-də Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında "Qurtuluşdan başlanan yol" mövzusunda interaktiv dərs keçilib.*

Dərsdə AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor Fəxrəddin Səfərli tərəfindən qeyd edilib ki, Azərbaycan Respublikası müstəqilliyini 1991-ci ildə bərpa etsə də, siyasi böhran, daxili və xarici pozucu qüvvələrin dövlətin əsaslarının sarsıdılmasına yönəlmiş məqsədyönlü fəaliyyəti, ayrı-ayrı bölgələrdə separatçılıq meyillərinin baş qaldırması, ağır sosial-iqtisadi vəziyyət ölkəni real vətəndaş qarşıdurması və öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Mövcud şəraitdə Ermənistanın təcavüzü və torpaqların işğalı respublikada vəziyyəti daha da gərginləşdirmişdi. Məhz belə bir taleyüklü məqamda Azərbaycan xalqı öz gələcəyini görkəmli dövlət xadimi Heydər Əliyevə etibar edib. Xalqın təkidli tələbi ilə Bakıya qayıdan dahi şəxsiyyət Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri, həmin il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilib.

Beləliklə, 15 iyun Azərbaycan tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olub. Ulu öndərin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dövlət müstəqilliyini təhdid edən proseslərin qarşısı alınıb və əsas diqqət dövlət quruculuğu məsələlərinə yönəldilib. Ümummilli lider Azərbaycanın çoxcəhətli inkişafı, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevrilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirib.

Vurğulanıb ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi ulu öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Heydər Əliyev siyasətini layiqincə yaşadan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasi kurs Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirir.

Qeyd olunub ki, Heydər Əliyev ideyalarına sədaqət nümunəsi olan Naxçıvan bu gün gələcəyə daha böyük inamla addımlayır, yeniyeni nailiyyətlər əldə edir, ictimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olur. Muxtar respublikada atılan hər bir addım, qəbul edilən hər bir qərar ictimaiyyət tərəfindən mütərəqqi təşəbbüs kimi qiymətləndirilir, cəmiyyəti düşündürən hər bir məsələdə Naxçıvan təcrübəsi nümunə kimi götürülür. Ulu öndərin göstərdiyi yolla qətiyyətlə irəliləyən Naxçıvan strateji hədəfləri uğurla reallaşdırır. Bütün bunların təməlində isə milli dövlətçiliyə sıx bağlılıq, yorulmaz fəaliyyət dayanır.

İnteraktiv dərsdə muzeyin direktoru Ramil Orucəliyev ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, keçdiyi şərəfli həyat yolu ilə bağlı muzeydə qorunan nadir tarixi sənədlər, elmi nəşrlər və xatirə əşyaları haqqında şagirdlərə məlumat verib.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

# Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir

## *“Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimləri bunu bir daha təsdiq etdi*

***Yüksək döyüş qabiliyyətinə malik qüdrətli ordu ölkəsini, yurdunu sevən hər bir vətənpərvər insanın fəxarət ünvanı, qürur mənbəyidir. Çünki ordumuz ölkəmizin qüdrəti, elimizin, obamızın güvən yeridir. “Hər bir uğurlu diplomatiyanın arxasında kəskin qılınc dayanır” deyimi də bu baxımdan təsadüfən yaranmayıb. Ordunun döyüş qabiliyyətini, gücünü isə yalnız iki halda müəyyənləşdirmək olar: birincisi, müharibədə, ikincisi, sülh şəraitində genişmiqyaslı hərbi təlimlərdə. Birinci məqam barədə birmənalı şəkildə onu deyə bilərik ki, son dövrlər Azərbaycan Silahlı Qüvvələri və onun tərkib hissəsi olan Əlahiddə Ümumqoşun Ordu təcavüzkar düşmənin təxribatlarına qarşı ildırımsürətli cavab zərbələrində öz gücünü, qüdrətini artıq dünyaya nümayiş etdirib. 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri ölkəmizin hərbi gücünü, ordumuzun peşəkarlığını, döyüş qabiliyyətini göstərən qələbə tarixləridir.***

İkinci məqam barədə danışarkən dünyanın məşhur hərb xadimlərinin fikirlərini yada salmaq yerinə düşərdi. Onlar təlimlərin keçirilməsinin və bu zaman əldə edilən nəticələrin əhəmiyyətini vurğulayaraq qeyd ediblər ki, təlimlər zabitin də, gizirin də, əsgərin də həyatında olduqca önəmlidir, çünki bu sınaq







onların hərbi bacarığını, səriştəsini qiymətləndirməyə imkan verir. Kim təlimdə fərqlənirsə, deməli, müharibə meydanında qələbə onundur. Bu mənada, təlimləri “hərbçilərin akademiyası” adlandırmaq səhv olmazdı. Reallıq budur ki, ən mühüm hərbi əməliyyat tədbiri olan təlimlər şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, qələbəyə olan inamın formalaşmasında başlıca rol oynayır. Bu gün Naxçıvanda müxtəlif formalı təlimlərə üstünlük verilməklə döyüş hazırlığı səviyyəsi daim yüksəldilir. Eyni zamanda təlimlərdə qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, döyüşdə iştirakı, həmçinin maddi-texniki təminat məsələləri yoxlanılır. Bu baxımdan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən iyunun 7-11-də Naxçıvanda iki ölkənin silahlı qüvvələrinin keçirdiyi “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimləri əhəmiyyətli nəticələri ilə yadda qaldı.

İyunun 11-də təlimin uğurla başa çatmasından sonra şəxsi heyətlə görüş zamanı çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, “Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür”. Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətimizdə yüksək döyüş hazırlığı vardır”.***

Düşmənlərimizi təşvişə salan, dosta qürur yaşadan həmin təlimlərdə iştirak edən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının bölmələri qardaş ölkənin hərbçiləri ilə birlikdə təlim planında qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirməklə yüksək döyüş qabiliyyəti nümayiş etdiriblər. Fəxrlə deyə bilərik ki, hazırlanmış ssenariyə uyğun Türkiyə Respublikası Silahlı Qüvvələrinin təlimə cəlb olunan heyəti ilə Naxçıvan Qarnizonu Qoşunlarının şəxsi heyəti arasında bölmələrin birgə idarə edilməsində vahid prosedurların tətbiqinə nail olunub, hədəflərin 85, maketlərin 90 faizindən çoxu məhv edilib. Nüfuzlu hərbi ekspertlərin də vurğuladıqları kimi, bu, çox yüksək nəticədir və dünyanın yalnız ən qüdrətli orduları təlimlərdə bu nəticələri əldə edə bilirlər.

Maraqlı bir məqam da ondan ibarətdir ki, həmin ordular başqa ölkənin silahlı qüvvələri ilə birlikdə təlim keçirdikdə bu göstərici bəzən çox aşağı düşür. Bunu milli amillərlə, əməkdaşlığın, koordinasiyanın zəif olması ilə əlaqələndirənlər az deyil. Bu baxımdan “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimlərində hər iki ölkənin silahlı qüvvələrinin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə, eyni zamanda iki ordu arasındakı əməkdaşlığın, koordinasiyanın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Təlimdə qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi də diqqətçəkən əsas məqamlardandır.

Təlimə 5 minə yaxın şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 təyyarə, helikopter, pilotsuz uçuş aparatı, silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 300-ə yaxın avtomobil texnikası





cəlb edilib. Bu, təlimin genişmiqyaslı olduğunu bir daha göstərir. Naxçıvan Qarnizonu Qoşunları Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri ilə birgə təlimdə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetirərək şərti düşmən üzərində zəfər qazanması birliyimizin, həmrəyliyimizin daim yeni-yeni qələbələrə yol açacağının müjdəçisinə çevrildi. Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqlarının “SU-25” hücum təyyarələrinin və vertolyotların müşayiəti ilə döyüş meydanında nümayiş olunması isə iki qardaş ölkə arasındakı səmimi, qarşılıqlı, faydalı əlaqələrin, strateji tərəfdaşlıq münasibətlərinin təcəssümü idi.

Həqiqətən də, Azərbaycan ilə Türkiyənin qonşuluq, dostluq münasibətləri region ölkələri üçün nümunədir. Bu əlaqələri xarakterizə edən əsas məqam isə təmənnasız qardaş köməyi, qardaş dəstəyidir. Tarixboyu bu iki ölkə qarşılıqlı olaraq bir-birinə daim dəstək olub. Azərbaycanlılar Çanaqqalada, Türk Qurtuluş Savaşında Türkiyə uğrunda canlarını fəda ediblər, türkiyəli qardaşlarımız isə həm 1918-ci ildə, həm də ötən əsrin 90-cı illərinin əvvəllərində bizə arxa-dayaq olublar. Bu gün isə iki qardaş ölkə çiyin-çiyinə verərək çox mühüm qlobal layihələri gerçəkləşdirir, regionun təhlükəsizliyi üçün əsaslı addımlar atır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri şəxsi heyətlə görüşündəki çıxışında digər bir mühüm məqama diqqət çəkib. Ali Məclisin Sədri deyib: ***“Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır”.***

Ordumuzun aparıcı hissəsini, heç şübhəsiz, gənclər təşkil edir. Bu mənada, onların əsl vətənpərvər kimi yetişməsi və öz üzərlərinə düşən tarixi missiyanı ləyaqətlə yerinə yetirməsi müharibə şəraitində yaşayan ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki vətənpərvərlik elə ali duyğudur ki, bu duyğu insanı zirvələrə yüksəldir, ona qəhrəmanlıq, fədakarlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə, dövlətçiliyə bağlılıq, yurda sevgi, milli hədəflərə inam aşılayır. Vətən sevgisi, yurd təəssübü gənc nəslin milli mənlik şüurunun inkişafında əsas istiqamətləri müəyyənləşdirir. Sevindirici haldır ki, ordumuzun şəxsi heyəti müdafiə qüdrətini artırmaq və düşmənə həlledici zərbə endirmək üçün istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlıq baxımından daim ciddi irəliləyişlərə imza atır, bununla da, dövlətin və xalqın etimadını doğrultmağa çalışır. “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimlərində də bunun şahidi olduq.

*Bu gün Əlahiddə Ümumqoşun Ordu özünün yüksək döyüş qabiliyyəti, nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirdiyi hərbi təlimlərdə öz gücünü nümayiş etdirə bilirsə, bu, o deməkdir ki, biz ordu quruculuğu sahəsində çox böyük nailiyyətlər qazanmışıq. Bu həm də o deməkdir ki, 30 ildir, blokada vəziyyətində yaşayan Naxçıvan müdafiəsi yüksək səviyyədə təşkil olunub. Yəni bu gün Əlahiddə Ümumqoşun Ordu qədim diyarın sürətli yüksəlişinin, tərəqqisinin qarantına çevrilib. Dövlət başçısı cənab İlham Əliyevin dediyi kim:* ***“Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır. Belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.*** “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimləri artıq bunun reallığa çevrildiyini bir daha təsdiq etdi.

**Rauf KƏNGƏRLİ**

# Rəsm əsərlərindən ibarət sərgi açılıb

*İyunun 12-də Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində məktəbin rəsm ixtisası üzrə müəllimi Gülnarə Hüseynova və şagirdlərinin rəsm əsərlərindən ibarət sərgisi təşkil olunub.*

Tədbirdə çıxış edən Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin direktoru Elşən Xəlilov bildirib ki, hazırda məktəbdə 22 şagird rəsm ixtisası üzrə təhsil alır. Bugünkü sərgidə 80-ə qədər əl işi və rəsm nümayiş etdirilir. Belə sərgilərin keçirilməsi uşaqların estetik zövqünün formalaşmasında, onların bu sənətə istiqamətləndirilməsində əhəmiyyətli rol oynayır.



Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova tədbirdə çıxış edərək yeni sərginin açılışı münasibətilə müəllim və şagirdləri təbrik edib. Bildirib ki, qədim diyarımızda mədəniyyət və incəsənətin bütün sahələri kimi, təsviri incəsənətimizə də böyük diqqət və qayğı göstərilir. Muxtar respublikamızda uşaqların, gənc rəssamların təhsili də diqqətdə saxlanılır. Uşaq incəsənət məktəblərində keçirilən ustad dərslər, müsabiqələr balaca rəssamlarda bu sənətə marağı daha da artırır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Təhsil nazirlikləri tərəfindən orta ümumtəhsil məktəbləri arasında keçirilən “Naxçıvan – doğma yurdum” mövzusunda rəsm müsabiqəsi muxtar respublikanın bütün məktəblərini əhatə edib. Yeni dərs ilində də bu tədbirlər davam etdiriləcəkdir.

Nazir diqqətə çatdırıb ki, şagirdlərdə muxtar respublikamızın tarixinə, türk-islam memarlıq abidələrinə yaranan maraq onların rəsmlərində də öz əksini tapır. Milli mədəniyyətimiz və incəsənətimizlə yanaşı, uşaqları dünya xalqlarının yaratdığı bədii sənət əsərləri, təsviri incəsənət nümunələri ilə tanış etmək əsas məsələlərdəndir. Uşaqlara rəngkarlıq, qrafika və heykəltəraşlıq sənətinin janrlarını, işləmə texnikasını, alətlərdən və materiallardan necə istifadə etmək üsullarını da öyrətmək vacibdir.

Nazir mədəniyyətimizə və incəsənətimizə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tədbir iştirakçıları adından minnətdarlığını bildirib.

Sonra nazir rəsm ixtisası üzrə fərqlənən şagirdlərə hədiyyələr təqdim edib.

Tədbirdə çıxış edən Moskvadakı Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzinin rəhbəri, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Qorxmaz Axundov balaca fidanların rəsmlərindən zövq aldığını bildirib və qeyd edib ki, Rusiyada yaşayan naxçıvanlı kimi hər dəfə qədim diyara gələndə qürur duyuram. Naxçıvanda gedən quruculuq və abadlıq işləri məni sevindirir. Vətəndən uzaqda yaşasam da, buradakı mədəniyyət və incəsənət yenilikləri bizi daim maraqlandırır. Naxçıvanda gördüklərimi Moskvadakı dostlarımla paylaşacağam.

Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin rəsm ixtisası üzrə müəllimi, Prezident mükafatçısı Gülnarə Hüseynova sərgidə nümayiş etdirilən əl işləri haqqında məlumat verib. Bildirib ki, onunla bərabər, şagirdlərinin də əl işlərinin sərgilənməsi bir müəllim kimi onda iftixar hissi yaradır.

Sonra sərgiyə baxış olub. Sərgidə qədim diyarımızın tarixi abidələri, təbiəti və bugünkü həyatı, şagirdlərin nağıl dünyası ilə bağlı əl işləri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

*Gəncliyimiz, gələcəyimiz*

## Bu incilərlə siz də tanış olun

*Paytaxt Bakıda təhsil ezamiyyətində olarkən təsadüf nəticəsində gənc bir qızla rastlaşdım. Sözün açığı, bu tanışlığa çox şad oldum. Çünki əslən Naxçıvandan olan bu xanımın mənim növbəti yazımın qəhrəmanına çevriləcəyini elə ilk baxışdan müəyyənləşdirmişdim. Lakin onun ailəsi ilə tanışlığım məni bu yazıda daha bir qəhrəmandan da bəhs etməyə sövq etdi. Çünki Əzizovlar ailəsi istedadlı övladları ilə öyünür. Onlar qazandıqları uğurlar ilə nəinki ailəsinin, hamımızın fəxridir. Gəlin bu istedadlı gənclərlə sizi də tanış edim.*



Elə başlayaq bu ailənin sorağına düşməyimə səbəb olan Jalə Əzizovadan. 1999-cu ildə Azərbaycanın incisi Ordubadda dünyaya göz açan Jalə orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra sənədlərini ali məktəbə təqdim edib. Qəbul imtahanlarında uğur qazanan bu istedadlı gənc 2016-cı ildə Azərbaycan Rəssamlıq Akademiyasının Dekorativ-tətbiqi sənət fakültəsinin Qobelen ixtisasına daxil olub. Elə həmin il ali təhsil almaq üçün ailəsi ilə birlikdə Bakı şəhərinə köçməli olub.

O qeyd etdi ki, ixtisasını çox sevir. Uşaqlıqdan incəsənətə, xüsusilə də tikmə və toxuma işlərinə həvəsi olan Jalənin sözlərinə görə, ona bu sənəti nənəsi sevdirib. Hələ balacalıqdan evdə xalçaçılıqla məşğul olan nənəni görən Jalə elə o zamandan incəsənətə maraq göstərib, rənglərin, ilmələrin sehrinə düşüb.

“Məhz niyə qobelen?” sualımı isə Jalə ixtisasının vurğunu olaraq belə cavablandırdı: – Qobelen hiss və duyğuların sənətidir, düşüncə tərzidir. Çünki qobelenin hazırlanma texnikasının əsasını fikir, ideya və öncədən çəkilmiş eskiz təşkil edir. Biz də bu sənət sayəsində xəyal gücümüzü ortaya qoyub əvvəlcədən düşündüyümüz süjet xəttini ilmələr vasitəsilə sənət əsərinə çevirə bilərik. Mən də çox istəyirəm ki, düşüncələrim ilmələrin, xalçaların üzərində əks olunsun. Özümü yalnız bu sənətdə görürəm. Həm də dünyada geniş yayılmış qobelen Azərbaycanda qədim xalq mədəniyyətinə aid süjetli xalça sənətidir. Bu sənəti qorumaq, davam etdirmək biz gənclərin borcudur. Mən də nənələrimizin bizə miras qoyduğu bu sənəti yaşadaraq gələcəyə daşımağa çalışıram. Ona görə də seçimim bu ixtisas oldu. Sağ olsun, ailəm mənə, bu mənada, çox dəstək verdi.

Hazırda III kurs tələbəsi olan Jalənin uğurları az deyil. Bir çox sərgilərdə iştirak edib. Deyir ki, ən böyük sevinci “Rənglərin bahar təravəti” adlı dekorativ-tətbiqi sənət əsərlərinin Bakı şəhərində açıq havada keçirilən sərgisində iştirak etməsi olub. Sərgidəki əl işlərinin naxış, kompozisiya, quruluş və rəng çalarları etibarilə insanların zövqünü oxşadığının şahidi oldum. Həqiqətən də, bu əsərlər insanlar tərəfindən böyük rəğbətlə qarşılandı. Bu sərgidə I yerə layiq görülməyim isə mənim üçün izahı çətin olan bir hissdir. Bu uğurumdan sonra sənətə həvəsim daha da artdı. Necə deyərlər, bu sərgi mənim üçün daha böyük stimul oldu.

Əl işlərini seyr etdikcə, istedadına bələd olduqca qarşıda onu yeni uğurlar gözlədiyinə əmin oldum. Jalə qeyd etdi ki, ən böyük arzularımdan biri doğma yurdum Naxçıvanda o gözəl diyarın gözoxşayan mənzərələrini tablolara köçürmək və doğma məmləkətdə sərgi təşkil etməkdir. Hazırda Naxçıvanla bağlı bir neçə əl işim var. Lakin bunu sərgi təşkil etmək üçün kifayət qədər hesab etmirəm. Gələcəkdə bu arzumu gerçəkləşdirməyə çalışıram.

Gənc Jaləyə arzularının gerçəkləşməsini və yeni-yeni uğurlar arzulayaraq digər qəhrəmanla da sizi tanış etmək istəyirəm. Ailənin göz



nuru olan 3 qız incilərindən biri də elə İnci Əzizovadır. Maraqlıdır ki, o bacısından tamam fərqli bir istedada malikdir. İdman onun üçün artıq bir həyat tərzidir.

2000-ci ildə Ordubad rayonunda dünyaya göz açan İnci 5 yaşından karate idman növü ilə məşğuldur. Hazırda Azərbaycan Milli Karate Federasiyasının üzvüdür. Türkiyə, Gürcüstan, Qazaxıstan, Xorvatiya, Danimarka, Bolqarıstan kimi ölkələrdə bir çox turnirlərdə iştirak edib. Bu turnirlərin, sadəcə, iştirakçısı yox, həm də mükafatçısı olması gənc idmançını ailəsinin və Vətəninin fəxrinə çevirib.

Dediyinə görə, onun üçün ən yaddaqalan yarış “Caspian cup” karate yarışı olub ki, həmin yarışda I yerə layiq görülüb. İnci gənc yaşda olmasına baxmayaraq, kifayət qədər titullara malikdir. “Arpaçay” karate turnirinin ikiqat çempionu adını daşıyır. Uğurları saymaqla bitməyən İnci “Baku Open” turnirində ikiqat respublika birincisi, Dünya Shotokan Federasiyasının təşkil etdiyi Avropa çempionatında II yerə layiq görülüb. Onun ən böyük uğuru isə Bolqarıstanın Varna və Türkiyənin İstanbul şəhərlərində keçirilən dünya çempionatlarında olub. Hər iki çempionatda I yerə layiq görülüb. Beləliklə, ikiqat dünya çempionu olan İnci idmanın karate növü üzrə göstərdiyi nəticələrə görə 2018-ci ilin ən yaxşı “Qadın idmançısı” adını qazanıb və “İdman ustası” dərəcəsi alıb.

Bir sözlə, gənc yaşında bu qədər uğurları ilə nəinki Azərbaycanda, eləcə də dünyada özünə layiqli ad qazanan İnci ilə fərəhlənməmək mümkün deyil. Bu fərəhi isə ən çox onun valideynləri yaşayır. Anası Könül Əzizova ilə söhbətimiz zamanı bir məqamı xüsusilə vurğuladı ki, övladlarımın maraq dairəsi hər zaman mənim üçün daha önəmli olub. Sevdiyin peşənin arxasınca getmək uğura aparan əsas işıqlı yoldur. Buna görə də övladlarımızı balaca yaşlarından maraqlandığı sahələrə yönəltmişik. Elə bu səbəbdəndir ki, Jalə qızımın marağında olduğu sahədə təhsil alması, ona dəstəyimizi əsirgəməməyimiz üçün ailəliklə müvəqqəti Bakıda məskunlaşmışıq. İnci qızımın seçdiyi sahə isə nə qədər zərif cinsin nümayəndələri üçün uzaq olsa da, biz ona mane olmadıq. Nəticəsini isə özünüz də görürsünüz. Qızlar təhsillərini başa vurduqdan sonra yenidən doğma diyarımıza – Naxçıvana qayıtmağımız hamımızın istəyidir. Naxçıvanda incəsənətə, idmanın inkişafına göstərilən diqqət, bu sahələrdə qazanılan uğurlar göz qabağındadır. Mənim də valideyn kimi ən böyük arzum övladlarımın da bu inkişafa töhfə vermələridir.

***P.S. Könül xanımla söhbətdən sonra, sözün açığı, əlavə edəcək başqa bir sözə ehtiyac duymuram. Əziz valideynlər, gələcəyimiz olan uşaqlarımızı arzularınızın yox, öz istəklərinin arxasınca yönləndirin. Əgər hamımız belə etsək, Əzizovlar ailəsi kimi gələcəyin Jalələrini, İncilərini, başqa sözlə, sağlam, istedadlı və Vətəninə layiq gəncləri yetişdirmiş olarıq.***

**Gülcamal TAHİROVA**

## İdmançılarımızdan 6 medal

*Azərbaycan Pankration, Grappling və MMA Federasiyasının təşkilatçılığı ilə respublika çempionatı keçirilib.*



Bakı şəhərindəki Sərhədçi Olimpiya İdman Kompleksində keçirilən ölkə çempionatı iki gün davam edib.

Çempionatda Naxçıvan Muxtar Respublika idmançıları da iştirak edib və uğura imza atıblar. Belə ki, MMA (Qarışıq Döyüş Sənəti) növündə yeniyetmələrin mübarizəsində Qadir Əliyev (46 kiloqram) bütün rəqiblərini məğlub edərək çempionatın qalibi olub. Yeniyetmələrin pankration növündə 53 kiloqram çəki dərəcəsində mübarizə aparan Miryusif Seydbəyli yalnız final görüşündə məğlub olub və ölkə birinciliyini ikinci pillədə başa vurub.

Bu növdə daha iki medalı 10-11 yaşlı idmançılarımız əldə edib. Belə ki, 27 kiloqram çəki dərəcəsində Oğuz Məmmədli, 30 kiloqram çəki dərəcəsində isə Səid Abbaslı bürünc medal əldə ediblər.

12-13 yaşlı idmançılarımızdan Xəyyam Hüseynov (34 kiloqram) və Vaqif Orucov (42 kiloqram) grappling növündə döşək üzərinə çıxıblar və hər iki idmançımız üçüncü yerlə kifayətlənib.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” 2019-cu il 25 yanvar tarixli Sərəncamına uyğun olaraq 1 iyun 2019-cu il tarixdən rayon ərazisində icbari tibbi sığortanın tətbiqinə başlanılıb.*

## İcbari tibbi sığorta Şərur rayonunda da tətbiq edilir



Müvafiq sərəncamda icbari tibbi sığortanın tətbiqi məqsədilə Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilib və tibb işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılıb.

Tibbi sığorta Şərur rayonunda 115 min 575 nəfəri əhatə edir. Rayonda icbari tibbi sığortanın tətbiqinə hərtərəfli şərait yaradılıb. Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına, kənd sahə xəstəxanası və həkim ambulatoriyalarına yeni avadanlıqlar alınıb. Tibbi sığortanın tətbiqi ilə əlaqədar icbari tibbi sığortaya cəlb olunacaq əhali haqqında məlumatlar toplanılıb, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazaları, səhiyyə informasiya idarəetmə sistemi və digər zəruri proqram təminatları, eləcə də reyestrlər yaradılıb.

Xəstəxananın işçiləri icbari tibbi sığortanın ilk tətbiq olunduğu Sədərək rayonunda bir neçə dəfə təcrübə keçiblər. Hazırlıq məqsədilə Şərur rayonunda kurs və seminarlar da təşkil olunub.

Hazırda icbari tibbi sığorta üzrə baza zərfində mövcud olan 1525 tibbi xidmətin 718-i Şərur Rayon Mərkəzi Xəstəxanasında, digərləri isə icbari tibbi sığortanın tətbiq olunduğu muxtar respublika xəstəxanalarında həyata keçirilir. İyunun 1-dən xəstəxanada 31 nəfər stasionar müalicə alıb, 4 nəfər icbari tibbi sığorta ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasına, 2 nəfər isə Diaqnostika Müalicə və Doğum mərkəzlərinə müayinəyə göndərilib.

Qeyd edək ki, icbari tibbi sığortanın tətbiqi vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Yaylaq mövsümü başlayıb

*Muxtar respublikada torpaqların münbitliyinin artırılması, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi, təbii yem sahələrinin mühafizəsi, otlaqların geobotanik zənginliyinin qorunub saxlanılması mühüm iqtisadi əhəmiyyət daşıyır.*



Yaylaq mövsümü cari il iyun ayının 10-dan başlanıb. Mal-qara yay otlaqlarına qaldırılmaqla növbəli otarma sistemindən istifadə edilir. Otlaqların məhsuldarlığını artırmaq üçün otlaq sahəsinin istifadəçiləri və ya icarədarları bu sahələrdən təyinatı üzrə yararlanmağa, buradakı su mənbələrindən səmərəli istifadəyə, otlaq sahələrində mərz (sərhəd) nişanlarının qorunmasına çalışmalıdırlar. Onlar köç yolu və mal-qara düşərgəsindən təyinatı üzrə istifadə etməli, yataqlar və otlaqlararası xüsusi yollarla gediş-gəlişə, lazımsız yol və cığırların salınmasına imkan verməməlidirlər. Otlaqlarda baytarlıq-sanitariya tələblərinə ciddi riayət edilməli, həmin ərazilərdə iribuynuzlu heyvanların naxır halında otarılmasının qarşısı alınmalıdır. Nizamsız və ya həddindən artıq otarma torpaqda qida elementlərinin azalmasına, torpaqların bərkiməsinə və çim qatının əhəmiyyətli dərəcədə məhv olmasına təsir göstərir. Onun yaxşı istifadə olunması torpağın deformasiyaya uğramasının qarşısını alır, həm də ot sıxlığı o qədər də dəyişmir. Bunun üçün otlaqların suvarılmasına, sahələrə üzvi və mineral gübrələrin verilməsinə, kol-kosdan və daşdan təmizlənməsinə də diqqət göstərilməlidir.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanları ilə birlikdə sahibkarlarla, fermerlərlə, fərdi təsərrüfat sahibləri ilə otlaq ərazilərində görüşlər keçirilir, otlaqlardan düzgün istifadə edilməsi, torpaqların münbitliyinin bərpası və artırılması sahəsində mövcud qanunvericiliyin tələbləri onlara izah edilir.

Cari ildə yay otlaq sahələrində və örüşlərdə qiymətləndirmə işləri aparılıb, Batabat, Qanlıgöl, Keçəldağ, Dəmirli yurdu və Göygöl ətrafı yaylaqlardan səmərəli istifadəyə dair maarifləndirici tədbirlər keçirilir. Bu sahədə görülən işlərin məqsədi otlaqların yem ehtiyatlarını qorumaqla yanaşı, torpaqların səhralaşmasının qarşısını almaqdır.

**Naxçıvan Muxtar Respublikası**
**Kənd Təsərrüfatı Nazirliyinin**
**mətbuat xidməti**

***İtmişdir***

Yaqubov Şakir Əziz oğlunun adına olan A-461952 seriya nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Nigeriya vətəndaşı Edegbai Auqusta Omuah adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.**
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

**Nömrəyə məsul:** Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 401